477:1.QXD 09.04.2022 0:28 Page 1


KÜRD xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

# KÜRD DİPLOMAT

№ 13 (477) 2 - 8 Aprel, Nisan sal. il 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: Hêjaye: 40 qəpik



Səh. 2

Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib


Səh. 9

Bafil Talebanî; Buyeran derxist ku çiqas pêwîstiya Êraqê bi Mam Celal e



Səh. 4

Aprel şəhidlərimiz heç zaman unudulmayacaq


Səh. 6

Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi


Səh. 6

Gələn il Şuşanı nələr gözləyir?


Səh. 11

Peyama Serok Nêçîrvan Barzanî bi bîreweriya şehîdên kurdên Feylî


Səh. 11

Mesrûr Barzanî: Kurdistan ji bo herkesî ciyê xwelêgirtinê ye

Aprel döyüşləri hərb tariximizin şanlı səhifəsidir Səh. 3

Em jenosîda ku li Kurdên Feylî hatîye kirin rûreş dikin, şehîdên xwe bi giramî bi bîr tînin Səh. 10

1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu Səh. 7

YNK: Divê yasaya hilbijartinan bê guhertin û tomara dengdêran bê sererastkirin Səh. 11

Kürd İmperatorluqları Səh. 8

Курдистан направляет в Багдад высшую комиссию Səh. 18


Səh. 10

Qubad Talebanî ber bi Yonanê ve birêket


Səh. 12

Xefika qederê


Səh. 10

Alkiş: 4'ê Nîsanê ji bo jinên Êzidî tê wateya hebûnê


Səh. 13

Eger dewleta we tune be, hûn nikarin goristanekê jî biparêzin

477:1.QXD 09.04.2022 0:28 Page 2



# Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib



Aprelin 6-da Brüsseldə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüşü keçirilib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirdi və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə etdi.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd etdi. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirdi.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edildi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.

Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, turizm naziri Yoel Razvozovu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğuladı. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirdi.

İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı energetika sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd etdi, Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda bərpaolunan enerjiyə artıq fəal şəkildə sərmayə qoyulduğunu bildirərək, İsrail şirkətlərinin də ölkəmizdə bu sahəyə maraq göstərdiyini qeyd etdi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı İsrail şirkətlərinin yüksək texnologiyalar sahəsində təcrübəsini qeyd edərək, bu istiqamətdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı hərbi-texniki sahədə də ölkələrimiz arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev əlaqələrimizin inkişafında həm Azərbaycanda, həm də İsraildə fəaliyyət göstərən diasporlarımızın rolundan danışdı, xalqlarımızın nümayəndələrinin əsrlər boyu birgə dostluq şəraitində yaşadıqlarını vurğuladı, yəhudi icmasının üzvlərinin birinci və ikinci Ermənistan-Azərbaycan müharibələrində iştirak etmələrinin və şücaət göstərməsinin ölkəmizdə ehtiramla qeyd olunduğunu bildirdi.

İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozov ilk növbədə Ramazan ayının başlanması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq Azərbaycanın gözəl bir ölkə olduğunu vurğulayaraq uzun illər xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma əlaqələrinin mövcud olduğunu məmnunluqla bildirdi. O, yəhudi icmasının ölkəmizdə sülh və əmin-amanlıq şəraitində yaşamasının İsraildə yüksək qiymətləndirildiyini dedi və bu baxımdan Azərbaycanın nümunəvi ölkə olduğunu vurğuladı.



“İsrail həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Biz ölkənizin ərazi bütövlüyünün bərpa olunmasını alqışlayırıq. Bu, çox önəmlidir”, - deyən qonaq Ermənistanla Azərbaycan arasında danışıqların uğurlu olacağına və bunun da regionda sabitliyin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Yoel Razvozov İsrail şirkətlərinin ölkəmizin işğaldan azad edilmiş ərazilərində müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, ağıllı şəhər, energetika, su təchizatı və digər sahələrdə iştirak etməkdə də maraqlı olduqlarını dedi.

Azərbaycanın biznes üçün çox yaxşı imicə malik olduğunu vurğulayan İsrailin turizm naziri ölkəmizdə biznes fəaliyyəti üçün təhlükəsiz və təminatlı şəraitin mövcudluğunun İsrail şirkətləri üçün cəlbedici olduğunu qeyd etdi.

Yoel Razvozov bu il Azərbaycanla İsrail arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin də qeyd olunduğunu vurğuladı.



# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Aprelin 5-də Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Antoni Blinken aprelin 6-da Brüsseldə Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında liderlər səviyyəsində keçiriləcək görüşə ABŞ-ın önəm verdiyini bildirib.

Prezident İlham Əliyev regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlara başlanması, nəqliyyat bağlantıları və kommunikasiyaların qurulması üçün Azərbaycanın irəli sürdüyü təkliflərini və mövqeyini qeyd edib.

Dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, birinci Ermənistan-Azərbaycan müharibəsindən itkin düşmüş hesab olunan 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsi və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırıb.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.

477:1.QXD 09.04.2022 0:28 Page 3



# Aprel döyüşləri hərb tariximizin şanlı səhifəsidir

Qəhrəmanlıq salnaməsi kimi xalqımızın tarixinə düşən 2016-cı il Aprel döyüşlərinin 6-cı ildönümü tamam olur. 2016-cı ilin aprelin əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradıldığı Aprel döyüşlərinin ən böyük tarixi əhəmiyyəti qələbə sayəsində Böyük Qayıdışa start verilməsi oldu. Xalqımızda Qarabağın işğaldan azad olunması ilə bağlı inamı daha da artıraraq ordumuzda ruh yüksəkliyi yaradan bu döyüşlərdə Ermənistanın




yaratdığı "keçilməz sədd"i ordumuz dağıtdı və Azərbaycan Lələtəpə yüksəkliyini işğaldan azad etdi. Ən önəmlisi isə odur ki, Suqovuşan-Ağdərə istiqamətində gedən yollar Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçdi. Aprel ayında əldə edilən qələbə növbəti zəfərin müjdəsi olmaqla bütün dünyaya Azərbaycan Ordusunun gücünü, xalqımızın əzmini, ədalətin bərpa olunacağı günün uzaqda olmadığını göstərdi.

Aprel döyüşləri, uzun illərdən bəri ölkə Prezidenti , Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam edən ordu quruculuğu sahəsində həyata keçirilən islahatların və müasir hərbi-texniki bazanın gücləndirilməsi nəticəsində nələrə qadir olduğumuzu və Azərbaycanın, ərazi bütövlüyünü bərpa etməkdə nə dərəcədə istəkli olduğunu bütün dünya anlatdı. Bütün qonşularımız, o cümlədən də Ermənistanın havadarları tam olaraq anladılar ki, Azərbaycan nəyin bahasına olursa olsun torpaqlarını işğaldan azad edəcək ki, xalqımız bunu 44 günlük Vətən müharibəsində tam sübut etmiş oldu.

Ən əsası isə odur ki, Aprel döyüşləri zamanı Xalq-Lider-Ordu birliyinin vəhdətinin şahidi olduq. Bu birlik nəticə etibarı ilə bizə həm Aprel Zəfərini, həm də Vətən müharibəsi zamanı möhtəşəm Qələbəni qazandırdı.

Bu illər ərzində səbirsizliklə dövlət başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmrini gözləyən vətən oğulları 44 günlük İkinci Qarabağ müharibəsində göstərdikləri qəhrəmanlıq, şücaət nəticəsində 30 ilin işğalına son qoyaraq bunun böyük hazırlığın, döyüş ruhunun, torpaq, Vətən sevgisinin, xalqımızın birliyinin, həmrəyliyinin nəticəsi olduğunu dünyaya göstərdi. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, torpaqlarımız tarixi sahibindədir, azaddır və yenidən canlandırılaraq, dirçəldirilir.

Bu günlər respublikanın bütün bölgələrində olduğu kimi laçınlı köçkünlərin məskunlaşdıqları bütün ərazilərdə , xüsusilə rayonun idarə, müəssisə və təşkilatlarının müvəqqəti fəaliyyət göstərdiyi Ağcabədi rayonu Taxta Körpü ərazisində də tarixi Aprel döyüşləri ilə bağlı müxtəlif səpkili tədbirlər keçirilir, bu döyüşlərin mahiyyəti gənc nəslə geniş izah olunur. Bu tədbirlər daxilində Laçın Rayon İcra Hakimiyyəti rəhbərliyi və YAP Laçın rayon təşkilatı, rayon ictimaiyyəti nümayəndələri ilə birlikdə laçınlı Aprel şəhidi Məmmədov Ülvin Camaləddin oğlunun ailəsi ilə görüşərək şəhidin qəbrini ziyarət etmiş, qəbirüstü abidəsinə tər qərənfillər düzərək bütün Şəhidlərin ruhunu ehtiramla yad edərək, Allahdan onlara rəhmət diləmişlər.

Görüşdə şəhid Ülvin Məmmədovun döyüş yoluna nəzər salınaraq göstərdiyi igidlik və şücaətdən söhbət açılaraq valideynlərinə belə vətənpərvər, dövlətini, xalqını, torpağını sevən gənc böyütdükləri üçün onlara təşəkkür bildirilmişdir. Həmçinin qeyd edilmişdir ki, illər keçsə də Şəhidlər unudulmayacaq, bugünkü və gələcək nəsillər onların qəhrəmanlığından nümunə götürəcəklər. Aprel döyüşlərində qazanılmış qələbədən sonra ölkə gənclərində vətənpərvərlik ruhunun daha da yüksəldiyi, Ali Baş Komandanın əmrlərinə hər an hazır olduqları böyük əminliklə qeyd olunmuşdur. Xüsusilə, o da vurğulanmışdır ki, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəhid ailələrinə, əlillərə və döyüş iştirakçılarına diqqət və qayğısı davamlıdır, tükənməzdir. Dövlətimizlə yanaşı, hər bir Azərbaycan vətəndaşı şəhid ailələrini, qazilərimizi, döyüş iştirakçılarını diqqətdə saxlayır və saxlayacaqdır deyə qeyd olunmuşdur.

Şəhidin valideynləri və yaxınları onlara göstərilən hərtərəfli diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Tərtər rayonu Sarıcalı kəndində şəhidlərin xatirə abidəsinin açılışı olub

Açılış mərasimində Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, müharibə veteranları, kənd sakinləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Öncə Azərbaycan Respublikasının Dövlət Himni oxunub, vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib, Tərtər Cümə Məscidinin axundu Sadiq Cəfərov tərəfindən onların ruhuna dua oxunub, abidənin önünə əklillər və gül dəstələri düzülüb.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov tarixə 44 günlük müharibə kimi düşən Vətən müharibəsindən, Milli Ordunun qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışıb. O, Vətən müharibəsində şəhidlərin qanının yerdə qalmadığını, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, böyük Qələbənin tarixi əhəmiyyətini xüsusi qeyd edib.

İcra başçısı Tərtər rayonunda Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olanların adlarının əbədiləşdirilməsi, onların əziz xatirəsini daim yaşatmaq, ailələrinə diqqət və qayğı göstərmək, problemlərinin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin xüsusi diqqətdə saxlanıldığını bildirib.

Sonra rayon rəhbəri Azərbaycan



Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid ailələri İctimai Birliyi tərəfindən təsis edilmiş "Vətən naminə" medalını şəhid qardaşı Mətləb Əliyevə və şəhid Qabil Əliyevin qızı Əsmər Əliyevaya təqdim edib.

Əfqanıstan Veteranları İctimai Birliyinin Tərtər rayon şöbəsinin sədri Mətləb Əliyev və Sarıcalı kənd tam orta məktəbin direktoru Vəsilə Mehdiyeva çıxış edərək kəndin şəhidlərindən, onların Vətən müharibəsində göstərdikləri döyüş şücaətindən, gənclərə nümunə olmalarından, ordu-xalq-iqtidar birliyindən danışıblar. Şəhidlərin xatirəsinin daim qəlblərdə yaşayacağını bildiriblər.

Tədbirdə məktəblilər Vətənə, ordumuza, şəhidlərimizə həsr olunan şeirlər söyləyiblər.

Sonda abidənin ətrafında şəhidlərin adına gül kolları əkilib.

Tədbirdə iştirak edən Şəhidlərin ailə üzvləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

# Sumqayıtda şəhid Kərim Əhmədəliyevin xatirə lövhəsinin açılışı olub

Sumqayıt şəhərində şəhid Kərim Əhmədəliyevin xatirə lövhəsi və baralyefinin açılışı olub. Açılış mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyəti Vətən Müharibəsi və Şəhid Ailələri işinin təşkili şöbəsinin müdiri Tərlan Hacızadə, şəhidin ailə üzvləri və şəhər ictimaiyyətinin "barəsində xatirələrindən danışaraq Allahdan ona rəhmət diləyiblər.

Qeyd edək ki, Kərim Əhmədəliyev 12 iyun 1998-ci ildə Sumqayıt şəhərində anadan olub. O, 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi



hissəsində müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Ordusunun əsgəri olan Kərim Əhmədəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Kərim Əhmədəliyev oktyabrın 4-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

# Şəhidimiz İslamlı Ruhid Uğur oğlu doğum günündə anılıb

Xalqımıza qələbə sevincini bəxş edən və bu yolda canından, qanından keçən igid Vətən oğullarımızdan biri Şəhidimiz İslamlı Ruhid Uğur oğlu yaşasaydı bu gün 23 yaşı tamam olacaqdı.

Şəhidin doğum gününə məzun olduğu Zığ qəsəbəsi, 315 saylı tam orta məktəbdə anım tədbiri keçirilmişdir. Tədbirdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Milli




Məclisin deputatı Sevinc xanım Fətəliyeva, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, RİHB-nın müavinləri, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və RİHBA-nın əməkdaşları, şəhidin doğmaları, döyüş yoldaşları iştirak etmişlər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canından keçən Şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə 1999-cu ilin bu günündə dünyaya göz açan Şəhidimiz İslamlı Ruhid Uğur oğlunun həyat yolunu əks etdirən video-çarxlar nümayiş olunmuş, şagirdlərin ifasında şerlər səsləndirilmiş, səhnəciklər göstərilmişdir.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov bildirmişdir ki, Vətən müharibəsindəki möhtəşəm qələbə dövlət başçımız cənab İlham Əliyevin öz vətəndaşlarına nə qədər bağlı olduğunu, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini bir daha əyani göstərdi. Döyüşlərin getdiyi 44 gün ərzində cənab İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə dahi siyasətçi olmaqla informasiya müharibəsində Azərbaycanın haqq səsini məharətlə bütün dünyaya yaydı, bütün təzyiqlərə cəsarətlə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik, müdriklik rəmzinə çevrildi. O, həmçinin dövlətimizin şəhidlərin ruhuna bəslədiyi ehtiram və onların ailələrinə tükənməyən qayğısından bəhs edərək bildirmişdir ki, gənc nəsil və müasir gənclərimiz şəhidlərimizin qanı, canı bahasına əldə olunmuş qələbəmizin, müstəqilliyimizin qədrini bilməli, daima qoruyub saxlamalı və özlərindən sonrakı gələcək nəsillərə ötürməlidirlər.

Digər qonaqlar da çıxış edərək işğaldan azad edilmiş torpaqlarımızda bu gün müqəddəs üçrəngli bayrağımızın dalğalanması naminə düşmən qarşısında bütün çətinliklərə sinə gərən əsgər və zabitlərimizin, hərbçilərimizin misilsiz şücaətindən bəhs etmiş, Şəhidlərimizə Allahdan rəhmət diləmişlər.

Daha sonra Şəhidimiz İslamlı Ruhidin Zığ qəsəbəsi, Dədə Qorqud yaşayış sahəsində yerləşən Şəhidlər Xiyabanındakı məzarı ziyarət olunmuş, ruhuna dualar oxunmuş və onun əziz xatirəsi ehtiramla yad edilmişdir.

Qeyd edək ki, İslamlı Ruhid ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

477:1.QXD 09.04.2022 0:28 Page 4



# Aprel şəhidlərimiz heç zaman unudulmayacaq

## *Aprel hadisələrindən altı il ötməsinə baxmayaraq, şəhidlərimiz hər zaman xalqımız tərəfindən anılır, hörmətlə yad edilir və mütəmadi məzarları ziyarət edilir*






















Xalqımızın xilaskarı, Ulu Öndər Böyük Heydər Əliyev, Vətənimizin çətin günündə, Xalqın istəyi ilə, bir güllə atmadan hakimiyyətə gəldi, qardaş qırğınına son qoydu və bir tarixi kəlamı ilə: "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir" ifadəsi Azərbaycanda yaşayan bütün millətləri, türkünü, kürdünü, rusunu, talışını, tatını, ləzgisini, avarını, lahıcını, bir yumuruq kimi birləşdirərək düşmənə qarşı birgə mübarizə aparmağa səbəb oldu, Vətənimiz Azərbaycanı dünya xəritəsindən silinməkdən xilas etdi və öndə gedən ölkələr sırasına çıxartdı. Xalqımız bu gün, Ulu Öndər Böyük Heydər Əliyev cənablarının uzaq görən siyasətini uğurla davam etdirən hörmətli Prezidentimiz Ali Baş Komandan İlham Əliyev cənabları ətrafında sıx birləşərək, düşmənə qarşı əzmlə mübarizə aparırlar. Qoy hamı bilsin, heç bir məkirli niyyətdə olan xarici qüvvələr xalqlarımızın birliyini, əzmini sındıra bilməz. Çünki onun İlham Heydər oğlu Əliyev cənabları kimin Ali Baş Komandanı var.

Şəhid Xaliq Həsən oğlu Əzizzadə, iyirmi yeddi avqust 1996-cı ildə, Naxçıvan Muxtar Respublikasının, Şərur rayonunun, Aşağı Yaycı kəndində ziyalı kürd ailəsində həyata göz açmışdı. 2003-cü ildə Bakı şəhəri Xətai rayonunun 116 saylı tam orta məktəbinin birinci sinifinə daxil olmuş, 2014-cü ildə həmin məktəbi müvəfəqiyyətlə bitirmişdir. 2015-ci ilin oktyabr ayında, Xətai Rayon Hərbi Komisarlığından həqiqi hərbi xidmətə çağırılmışdır. Öz istəyinə görə, Xalqımızın yaralı və qürur yeri olan, Qarabağda düşmənlə sərhəd olan ön cəbhədə xidmət etməyi xahiş etmişdir. Hərbi xidmətdə qulluq etdiyi zaman, rəhbərliyin və yoldaşlarının etimadını qazanaraq böyük hörmətə sahib olan, Xaliq Həsən oğlu Əzizzadə, rəhbərliyin diqqətini çəkir və nümunəvi xidmətinə görə, dəfələrlə komandiri tərəfindən dəyərləndirilmiş və mükafatlandırılmışdır.

Bildiyimiz kimi mənfur daşnaq ünsürləri, Azərbaycanımızın Cənnət məkanı olan Qarabağa və Dağlıq Qarabağa göz dikərək ərazilərimizin iyirmi faizini işğal etmişdir. Öz işğalçı siyasətindən gözü doymayan mənfur daşnaq ünsürləri, aprelin 2-də atəşkəsi pozaraq sərhədd boyu mövqeylərimizi mina atanlardan və roketlərdən atəşə tutsalar da, igid əsgərlərimiz vaxtında düşmənin cavabını verərək, ermənilərin əlində olan bir neçə kəndi və bir sira strateji yüksəklikləri azad edərək düşməni geri oturtdu.

Müharibə itgisiz olmur, Vətənimizin onlarla igid övladları bu şərəfli yolda, Vətənimizin müdafiəsində həyatlarını Vətənimiz Azərbaycan uğrunda qurban verərək Şəhidlik zirvəsinə ucaldılar.

Xaliq Həsən oğlu Əzizzadə, Cəbhənin Tərtər-Goranboy istiqamətində aprelin 4-dən 5-nə keçən gecə erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən canını düşünmədən Vətən uğrunda qurban verərək Şəhidlik zirvəsinə ucaldı.

Cənab Prezidentimiz, Ali Baş Komandan, İlham Heydər oğlu Əliyev başda olmaqla, Dövlətimiz, Xalqımız bütün Şəhidlərimizə və ailələrinə böyük diqqət və qayğı göstərərək onların yas mərasimində iştirak edir və Şəhidlərimizin ailələrinin yanında olurlar.

Şəhid Xaliq Həsən oğlu Əzizzadənin yas mərasimində biz bunun canlı şahidi olduq. Xətai Rayon İcra Hakimiyyətinin, Sabunçu Rayon İcra Hakimiyyətinin rəhbərlikləri, hökumət nümayəndələri, möhtəşəm Xalqımız, Şəhidimizi o qədər izdihamla, hörmətlə son mənzilə yola saldılar ki, bunu sözlə ifadə etmək mümkün deyil.

Xaliq Azərbaycan bayraqları ilə, güllə-çiçəklə, maşın karvanı ilə, Şəhid Xaliq Həsən oğlu Əzizzadənin yaşadığı Xətai rayonunun Əhmədli qəsəbəsindəki ünvanından başlayaraq, Kürdəxanı məzarlığına qədər, insan selindən tərpənmək olmurdu. Xalq hər yerdə Azərbaycan bayraqları ilə Şəhid karvanını hörmətlə qarşılayır və Şəhid karvanına qoşulurdular. Şəhid karvanı Kürdəxanı məzarlığına çatanda məzarlıqda daha böyük izdihamın olduğunun şahidi olduq. Həqiqətən Xalqımız öz şəhidinə böyük sevgi, hörmət və məhəbbət göstərdi. Çox yüksək səviyədə, hormətlə, izzətlə

Cənazə namazı qılındıqdan sonra Şəhidin tabutu üzərindəki üçrəngli dövlət bayrağımız əbədi xatirə olaraq, mərhumun atası Həsən müəllimə təqdim edildi.

Şəhidimiz, Sabunçu rayonunun Kürdəxanı qəsəbəsindəki qəbiristanlıqda Azərbaycanın dövlət himninin sədaları altında dəfn olundu. Bəli, torpaq uğrunda ölən varsa Vətəndir. Vətən uğrunda Şəhid olan varsa o, Vətən basılmaz! Allahtəala bütün Şəhidlərimizə rəhmət eləsin, məzarları nurla dolsun. Amin!

***Səhifəni hazırlada: Tahir Süleyman***

477:1.QXD 09.04.2022 0:28 Page 5



# Aprel şəhidlərimiz heç zaman unudulmayacaq

## *Aprel hadisələrindən altı il ötməsinə baxmayaraq, şəhidlərimiz hər zaman xalqımız tərəfindən anılır, hörmətlə yad edilir və mütəmadi məzarları ziyarət edilir*












Aprelin 6-da cəbhədə erməni təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan Laçın rayonunun Qarakeçdi kənd sakini, 1996-cı il təvəllüdlü Məmmədov Ülvin Camaləddin oğlu aprelin 7-də dəfn olunub. Şəhid ailə üzvlərinin müvəqqəti məskunlaşdığı Ağcabədi rayonunun Taxtakörpü ərazisindəki Qarakeçdi obasında torpağa tapşırılıb. Onun dəfnində Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini müvəqqəti icra edən Aqil Nəzərlinin iştirakı ilə rayonun idarə, müəssisə və təşkilatları, kənd İcra nümayəndəlikləri, ziyalılar, ağsaqqallar, gənclər, məktəblilər və hərbiçilərdən ibarət 6000 nəfərdən çox rayon sakini, şəhidin qohumları, dostları iştirak ediblər.

Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Aqil Nəzərli çıxış edərək bildirmişdir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş və məntiqli siyasət nəticəsində torpaqlarımızı işğaldan azad edəcəyik, qaçqın və məcburi köçkünlər öz doğma yurd–yuvalarına qayıdacaq və cəzasız qalmış cinayətkarlar layiqli cavablarını alacaqdır. Sonda rayon rəhbəri erməni qatillərinin qurbanı olan bütün şəhidlərə Tanrıdan rəhmət diləmişdir.

İzdihamlı tədbirdə iştirak edən Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin katibi Abdulla Qurbani, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Millət vəkili Mahir Abbaszadə və Aqil Abbas çıxış edərək şəhidin yaxınlarına səbr diləmiş, Silahlı Qüvvələrimiz tərəfindən işğalda olan bütün torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyini bildirmişlər. Daha sonra şəhidin atası Camaləddin Məmmədov çıxış edərək övladı şəhid olduğundan qürur duyduğunu bildirmişdir.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib, şəhid əsgər yaylım atəşləri altında son mənzilə yola salınıb.

Yekunda Laçın Rayon İcra Hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Aqil Nəzərli , hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə müəssisə rəhbərləri, kənd icra nümayəndələri, ziyalılar və rayon ictimayyəti nümayəndələri şəhidin qəbri üzərinə tər çiçək dəstələri düzdülər.

Evin Camaləddin oğlu Məmmədov 1 yanvar 1996 cı ildə valideyinləri məskunlaşan "Taxta körpü" ərazisindəki "Laçın obaları"nda dünyaya gəlmişdi. Torpaqlarımızın 20 faizini zəbt edib, Xocalı soyqırımını törədən mənfur düşmənə qarşı Ülvində barışmaz mövqe yaranmışdı. Qarabağı, əzizlərinin doğulduğu Laçın torpaqlarını işğaldan azad edənədək döyüşməyi şərəfli borcu bilirdi. Yaşadığı şəraitin ağırlığı Ülvinin idmana olan həvəsinin qarşısını ala bilməmiş, sərbəs güləşdə yeniyetmələr arasında dəfələrlə ölkə birincisi olmuş və bir sıra fəxri fərmanlarla təltif edilmişdir. Laçın rayon Qarakeçdi kənd 1 nömrəli tam orta məktəbini bitirib hərbi xidmətə çağırılan Ülvin 2016 cı il aprelin 1 də həqiqi hərbi xidmətini başa vurmuşdur. Həmin gün komandir tərxis olunan əsgərləri sıraya düzüb azad olduqlarını bildirmiş və sonra soruşmuşdu; Müddətdən artıq xidmət etmək istəyən varsa bir addım önə çıxsın. Ülvin irəli çıxaraq demişdi: "Komandir, Qarabağa, Laçına qayıdana kimi sizinləyəm. Vətən uğrunda Şəhid olmaq arzusundayam". Elə həmin gün Tərtərə, Talışdağa yola düşür. Ülvi sərras snayper nişancısı idi. 2016 cı il aprelin 5 də Tərtər, Talışdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdu. Qarabağın işğaldan azad olunacağı gün və Laçında yaşamaq Ülvinə qismət olmasa da vətən uğrunda Şəhidlik zirvəsinə ucalaraq arzusuna qovuşdu. Böyük izdihamla Şəhidini son mənzilə yola salan minlərlə Laçınlı "Atəşgəsə son","Rədd olsun erməni", "Qarabağa azadlıq" kimi şüarlar hayqıran Laçınlı gənclər torpaqlarımızın azadlığı uğrunda düşməni hər an məhv etməyə hazır olduğunu bəyan elədi. Ülvinin, eləcədə, bütün Şəhidlərimizin xatirəsi heç vaxt xalqımızın yaddaşından silinməyəcək.

***Şəhid varsa, torpaq da var, Vətən də,***
***Şəhidlərə ölüm yoxdur Vətəndə!***

***Səhifəni hazırlada: Vüsal Ziyadxanomku***

477:1.QXD 09.04.2022 0:28 Page 6



# Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

***Azərbaycan xalqının işğal altındakı torpaqlarının azadlığı uğrunda mübarizəsinin şərəfli səhifələrindən biri olan Aprel döyüşlərindən 6 il ötür. 2016-cı il aprelin 2-də Ermənistanın törətdiyi hərbi təxribatlara cavab olaraq müzəffər ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar cəbhənin müxtəlif istiqamətlərində torpaqlarımızın bir hissəsinin işğaldan azad edilməsi ilə nəticələndi.***



***Müşfiq Məmmədli, Milli Məclisin deputatı***

Apreldə 4 gün davam edən əməliyyatlar Azərbaycanın hərbi yolla öz torpaqlarını azad etmək əzmini bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müasir hərbi çağırışlara uyğun olaraq həyata keçirdiyi ordu quruculuğu və hərbi islahatlar məhz Aprel döyüşlərində ilk dəfə özünü praktik tərəfdən göstərdi. Ona qədər hərbi paradlarda şahidi olduğumuz müasir hərbi imkanlarımız ilk dəfə bu hərbi əməliyyatlar zamanı öz sözünü dedi. Çoxsaylı insani və texniki tələfatlar verərək geri çəkilmək məcburiyyətində qalan erməni hərbi bölmələri Azərbaycan Silahlı Qüvvələrinin gücünü öz üzərlərində hiss etdilər. Nə qədər gizlətməyə çalışsalar da, ayrı-ayrı erməni mənbələri Ermənistan ordusunun çoxsaylı canlı qüvvə və hərbi texnika itirdiyini etiraf etdi. Hələ Aprel döyüşlərinə qədər hərbi reytinq agentlikləri Azərbaycanın artan hərbi gücünü hesabatlarında göstərirdilər. Aprel döyüşlərində isə praktik şəkildə sübut olundu ki, ordumuzun qarşısında düşmən duruş gətirə bilməkdə acizdir.

Aprel döyüşləri həm də hərbçilərimizin yüksək hərbi hazırlığını nümayiş etdirdi. Belə ki, ermənilərin keçilməz hesab etdikləri bir neçə müdafiə mərhələsindən ibarət "Ohanyan səddi" ilk olaraq Aprel döyşlərində yarıldı. Hərbçilərimiz düşmənin təxribatının qarşısını almaq və onu layiqli şəkildə cəzalandırmaq üçün həyata keçirdikləri hərbi əməliyyatlar zamanı olduqca böyük peşəkarlıq nümayiş etdirdilər. Beləliklə, həm Ermənistan qarşısındakı hərbi üstünlük, həm də hərbçilərimizin peşəkarlığı Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi ordu quruculuğunun döyüş meydanındakı təcəssümü kimi tarixə düşdü.

Aprel döyüşləri həm də Azərbaycan Ordusunun şəxsi heyətnin vətənpərvərliyinin tərənnümü oldu. Zabitlərimiz, gizirlərimiz, əsgərlərimiz bu döyüşlərdə qəhrəmanlıq dastanları yazdılar, vətəni sevməyin nümunələrini yaratdılar. Azərbaycan xalqı Aprel döyüşlərinin şəhidlərinin əziz xatirəsini hər zaman ehtiramla yad edir və edəcək.

4 günlük Aprel döyüşləri Azərbaycanın hərb tarixinə qələbə salnaməsi yazdı. Ermənistan hərbi birləşmələri bu hadisələrdə Azərbaycan Ordusundan layiqli cavab aldılar. Lələtəpənin azad edilməsi, Cocuq Mərcanlı kəndinin bərpası bu qələbənin rəmzlərinə çevrildi. Bu qələbə həm də torpaqlarımızın işğaldan azad ediləcəyi tarixin artıq çox uzaqda olmadığından xəbər verdi. Elə 44 günlük Vətən müharibəsindəki Zəfərə gedən yol da Aprel döyüşlərindən başladı. Prezident İlham Əliyev çıxışlarının birində bununla bağlı deyib: "Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilmişdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik. Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Artıq Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. 44 günlük Vətən müharibəsi dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntənəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu tariximizin şərəf və qəhrəmanlıq səhifəsi olan Aprel döyüşlərindən başlanmış Zəfər yürüşünü 44 günlük müharibədə layiqincə davam etdirib uğurla başa vurdu. Bu gün həm də Aprel şəhidlərinin ruhları sevinir. Çünki uğrunda şəhid olduqları vətənimizin ərazi bütövlüyü təmin olunub.

İşğaldan azad olan Qarabağ və Şərqi Zəngəzur yeni dövrlərini yaşayır. 30 ilə yaxın düşmən tapdağı altında qalan torpaqlarımız bu gün Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə sürətlə yenidən qurulur, tarixi şöhrətini özünə qaytarır.

# Gələn il Şuşanı nələr gözləyir?

***Şuşa şəhəri 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunub. TÜRKSOY Daimi Şurasının ötən həftə Bursa şəhərində keçirilən növbədənkənar iclasında bununla bağlı qərar qəbul edilib.***

Şuşanın Türk Dünyasının Mədəniyyət Paytaxtı seçilməsinin əhəmiyyəti barədə Modern.az-a danışan deputatlar TÜRKSOY-un qərarını yüksək qiymətləndiriblər.

Deputat Əziz Ələkbərli bildirib ki, Şuşa bütün dövrlərin mədəniyyət mərkəzi kimi imicini qoruyur:

"2021-ci ilin yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər", – dedi. Həmin il mayın 7-də cənab Prezident "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzaladı. 5 yanvar 2022-ci il tarixdə isə Cənab Prezidentin Sərəncamı ilə 2022-ci il Şuşa ili elan edildi. İndi Şuşa şəhəri 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət Paytaxtı seçilib.

Deputat hesab edir ki, bütün bunlar təsadüfi deyil. Şuşa bizim ərazilərimizin 30 illik işğalına son qoyan Zəfərimizin, milli qürurumuzun, milli ləyaqətimizin bərpasının şəhəridir:

"Bu il Şuşa şəhərinin 270 illiyidir. Şuşa Azərbaycan mədəniyyət tarixinə elə möhtəşəm töhfələr, şəxsiyyətlər verib ki, biz onu Azərbaycanın bütün dövrlər üçün mədəniyyət mərkəzi hesab edirik. Şuşa eyni zamanda türk və dünya mədəniyyətinə böyük töhfələr verib, şəhər olaraq türk və dünya mədəniyyətinin nadir incilərindən biridir. Ona görə də Şuşanın 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunması tamamilə doğru qərardır və hesab edirəm ki, bu, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə obyektiv çatdırılmasında öz müstəsna rolunu oynayacaq. Dünya bir neçə min illlik tarixə malik olan Azərbaycan mədəniyyəti ilə heç bir tarixi kökü olmayan hibrid, erməni "mədəniyyətini" müqayisə etmək imkanı qazanacaqdır".

Deputat Azər Badamov isə qeyd edib ki, Şuşa Cənubi Qafqazın mirvarisi, Azərbaycanın baş tacıdır:

"Təəssüf ki, ermənilər işğal altında saxladıqları 28 ildə digər ərazilərimiz kimi Şuşanı da dağıdıb, vandalizmə məruz qoyaraq, şəhərin azərbaycanlılara məxsusluğunu silməyə çalışıblar. Amma ermənilər nə qədər çalışsalar da Şuşa şəhərində mədəniyyətimizi və tarixi məxsusluğumuzu silə bilmədilər. Çünki Şuşanın hər bir daşında, hər bir abidəsində Azərbaycanın milli mədəniyyətinin notları həkk olunub və bu izləri silmək qeyri-mümkündür. İşğaldan azad olunmasından keçdiyi qısa bir zaman kəsiyində Şuşaya milli ruh qayıtdı və əvvəlki kimi Cıdır düzündə, Vaqif məqbərəsinin önündə mədəni kütləvi tədbirlərin yenidən keçirilməsinə başlanıldı. Şuşa bizim üçün müstəsna əhəmiyyətli şəhərdir. Cənab Prezident Şuşanı mədəniyyət paytaxtımız elan edib. O cümlədən İSESKO da Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunması üçün təşəbbüs irəli sürüb. 3 gün əvvəl isə Türkiyənin Bursa şəhərində keçirilən TÜRKSOY Daimi Şurasının İclasında Şuşa 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunub".



***Əziz Ələkbərli, Milli Məclisin deputatı***

Deputatın fikrincə, Şuşanın Türk Dünyasının Mədəniyyət Paytaxtı seçilməsi bu tarixi-mədəni şəhərin həyatı üçün əhəmiyyətli olacaq:

"Türk dünyasının mədəniyyət paytaxtı kimi Şuşada 2023-cü ildə türk dövlətlərinin birgə müxtəlif mədəni-kütləvi tədbirləri keçiriləcək. Bu tədbirlərdə iştirak etmək üçün Şuşaya çoxlu qonaqlar gələcək. Qonaqların tərkibində mədəniyyət adamları, siyasətçilər, tarixçilər olacaqlar ki, onlar Şuşada və işğaldan azad olunmuş digər ərazilərimizdə ermənilərin törətdikləri vandallıqları, məscidlərimizin təhqir olunmasını görməklə əsl reallığın şahidi olacaqlar. Şuşanın əsası 270 il əvvəl Pənahəli xan tərəfindən qoyulub. Bu şəhərdə ermənilərə xas olan heç nə yoxdur. Bu il və gələn il keçirilən mədəniyyət tədbirləri Şuşa qapılarının türk dünyası üçün yenidən açılması deməkdir. Şuşa azaddır və dünyanın hər bir qitəsindən qonaqları qəbul etməyə hazırdır. Azərbaycanlılar ermənilərdən fərqli olaraq qonaqpərvər xalqdır. Şuşa şəhəri də bundan sonra öz qonaqpərvərliyi və qəbul etdiyi çoxlu qonaqları ilə daha xoşbəxt olacaq".

477:1.QXD 09.04.2022 0:28 Page 7



# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

**Əvvəli 475-ci sayımızda**

İrəvanda ermənilərin müsəlmanlara qarşı törətdiyi qəddarlıqları və əzazilliyini şəhərin ətraf kəndlərində yaşayan müsəlman kürd tayfaları eşidən kimi silahlanaraq atlara minib, qəzəblənmiş aslan kimi nərə çəkə-çəkə üz qoydular İrəvanda qırğın olan yerlərə. Yollarda əllərinə düşən erməniləri öldürüb, mallarını talan edib, evlərinə od vurub yandırırdılar. Ermənilərin qaçanları gəlib bir böyük kənddə cəm olmuşdular. Həmin kənddə dövlətin divanxanası və bir az qoşunu var idi. Həmin qoşun erməni—müsəlman arasında gedən qırğını dayandırmaq üçün kürdlərə mane oldular. Qafqaz canişininin göstərişi ilə cənab Şeyxülislam həzrətləri katolikos Hayrik ilə gəlib məsciddə və kilsədə dualar və xütbələr oxuyub, xalqa nəsihətlər verdilər. Bununla da iki xalq arasında gedən qırğınları dayandırdılar. Bu əhvalatdan sonra erməni qımdatları başqa şəhər və kəndlərə dağılaraq yerli erməni əhalisini müsəlmanlara qarşı davaya qaldırmaq üçün onlar arasında təbliğat aparmağa başladılar. Uzaqgörən və davaya qoşulmaq istəməyən ermənilər qımdatların bu fitnə-fəsadlarından uzaq olmağa çalışırdılar. Qımdatlar isə belə erməniləri fürsət düşən kimi tutub öldürürdülər. Həmin bu tarixdə, yeni 1905-ci ildə Tehran və onun ətrafında, eləcə də, Xorasanda vəba xəstəliyi yayılmışdı. İki ay davam edən bu xəstəlik nəticəsində hər gün təqribən yüz adam ölürdü.

### 1905-ci İLDƏ NAXÇIVANDA BAŞ VERMİŞ ERMƏNİ—MÜSƏLMAN ƏHVALATI

Elə ki İrəvanın fitnə-fəsad törədən erməniləri Naxçıvana gəldilər, orda vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri vuruş sursatlarını—topları, bombaları, beşaçılan tüfəngləri və s. növbəti qırğın üçün hazırlamağa başladılar. Hərbi sursatları keçidlərdə və gizli mövqelərdə yerləşdirdikdən sonra dükan-bazarları bağlayıb, bütün icma ilə qalxıb mövqelərdə hazırladıqları silahdan qəflətən müsəlmanlar üzərinə gurhagur atəş açmağa başladılar. Əhvalatdan xəbərsiz və dükan-bazarda öz işləri ilə məşğul olan biçarə müsəlmanlar çaş-baş qalıb, bilmədilər nə etsinlər. Kimisi fürsət tapıb dükanı bağladı, kimisi tapa bilməyib, açıq qoyub canını qurtarmaq üçün evlərinə qaçdılar. Yarım saata tüfəngi olan tüfəngini, tapançası olan tapançasını, olmayanlar isə xəncər, külüng, balta, dəhrə və ağac götürüb, ermənilərin müqabilinə gəldilər və onlarla davaya başladılar. Silahsız müsəlmanlar münasib fürsətlərdən istifadə edərək qəflətən erməni silahlılarının üzərinə hücum edib əllərindəki balta, dəhrə, ağacla vurub onları yerə yıxaraq tüfəng və patrondaşlarını əllərindən alıb, üz qoydular davaya. Müsəlmanlara kömək gələnə kimi hər iki tərəfdən ölənlər oldu. Bir para yerlərdən gələn müsəlmanlar nərə çəkərək üz qoydular ermənilərin üstünə. Hər tərəfdə ermənilər böyük tələfata məruz qaldılar və vəziyyəti belə görüb üz qoydular qaçmağa.

Şəhər erməniləri məğlub olandan sonra müsəlmanlar üz qoydular erməni kəndlərinə. Həmin kəndlərdə ələ düşən erməniləri öldürüb, mal-dövlətini talan



**Mir Möhsün Nəvvab**

və qarət etməklə bərabər evlərinə od vurub yandırdılar. Bu kəndləri darmadağın etdikdən sonra üz qoydular Naxçıvan qəzasındakı Böyük Badamlı kəndinə. Həmin

kəndin bütün erməniləri—gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Tam ehtiramla kəlmeyi-şəhadəti deyib müsəlmanlığı qəbul etdiklərini bildirdilər. Müsəlmanlar onları çox sevinclə sakitləşdirib, böyük ehtiramla oradan geri qayıtdılar. Bu xəbər hər tərəfə yayıldı. Erməni qəzetləri yazırdı ki, müsəlmanlar bu qədər qətl və qarətlə kifayətlənməyib, erməniləri məcburi şəkildə öz dinlərindən döndərib müsəlman edirlər.

Bu əhvalat dövlətə və divan əhlinə çatan kimi hökm elədilər ki, durmadan İrəvan qubernatoru həmin kəndə getməlidir. İrəvan qubernatoru Əlixanov çoxlu kazak götürüb, qoşunla Badamlı kəndinə gəldi. Əlixanovun görüşünə gəlmiş müsəlman dinini qəbul edən ermənilər onu salamlayarkən Əlixanov onların salamını rədd edərək buyurdu ki, erməni qəzetlərinin yazdığına görə müsəlmanlar sizləri zor və hədə-qorxu ilə öz dininizdən döndərərək, müsəlman ediblər. Əgər həqiqət belədirsə, kazak qoşunu burada qalıb, sizi qorumağa hazırdır. Sizə qarşı heç kəs qüvvə işlədə bilməz. Yeni islam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə-qorxu ilə müsəlman etməyib. Əksinə, biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik. Bu cavabı eşidən Əlixanov camaata heç bir söz demədən geri qayıdıb getdi.

### 1905-ci İL TƏBRİZ ƏHLİNİN ƏHVALATI

Naxçıvanda, İrəvanda və Bakıda baş verən iğtişaşlar zamanı İran təbəələrindən olan müsəlman camaatından da məzlum və şəhid olduğunu eşidən Təbriz əhli buna dözməyib qəzəblənir, bazar-dükanı bağlayıb üz qoyurlar erməni məhəllələrinə tərəf. Onlar yuxarıda göstərilən şəhərlərdə nahaq yerə öldürülmüş müsəlmanların qanının əvəzini çıxmaq üçün ermənilərin üstünə gedirdilər. Əhvalatdan xəbərdar olan ermənilər dəhşətə gələrək böyük-kiçik, övrət-uşaq qapıları bağlayaraq dad-fəryad qoparırlar və əhvalatı Təbriz hakiminə çatdırırlar. O isə erməniləri mühafizə etmək üçün erməni-müsəlman məhəllələrinin arasına qoşun yeridir. Qoşun dəstələri tüfənglərini çəkib atəşə hazır vəziyyətdə dayanırlar. Bununla da Təbriz hakimi ermənilərin öldürülməsinin və evlərinin qarət edilməsinin qarşısını aldı. Bir neçə gün ərzində Təbrizdə sakitlik yaradıldı. Bundan sonra Təbriz hakiminin əmri ilə ermənilərdən bütün silah və sursatın (tüfəng, güllə, tapança və s.) hamısını yığdılar. Təbrizin erməni camaatı teleqraf və məktubla katolikosa və yerli din xadimlərinə müraciət etdilər ki, ermənilər sakit oturub ədavət törətməsinlər. Çünki əks təqdirdə biz burada müsəlman əhli tərəfindən qətlə yetirilə bilərik.

### XORASAN ƏHVALATI

**ƏLAVƏ:** Yenə bu tarixdə etibarsızlığı və nahaq yerə qan tökməyi və müsəlmanlara qarşı qəddarlığı ilə hamıya yaxşı məlum olan erməni tayfası bir para müsəlman əhlini guya ermənilərin özündən qorumaq və




mühafizə etmək üçün onları şirin dilə tutub öz evlərində sığınacaq verirlər. Sonra isə onları qətlə yetirib, bədən üzvlərini kəsmiş, başlarına nal və mismar çaldıqları müsəlmanlara məlum olmuşdur. O cümlədən, Xorasan əhli də bu əhvalatdan xəbərdar olan kimi qəzəblənib, həmin saat töküldülər erməni dükanlarının üstünə. Nə qədər mal və əşyaları var idi talan və tarac etdikdən sonra özlərini də qətlə yetirmək istəyərkən bir para divan əhli tez bunun qarşısını alaraq ermənilərin qətlə yetirilməsinə imkan vermədilər.

**ƏLAVƏ:** 1905-ci ildə Tiflis şəhərində Qafqaz namestniki (canişini) öz övrəti ilə faytona minib küçələrin birindən keçdiyi zaman çoxdan fürsət axtaran erməni qımdatlarından 4 nəfər həmin faytonun üzərinə hücum çəkərək xəncər ilə namestniki bir neçə yerindən yaralayıb qaçdılar. Canişinin yanında olan kazak ermənin birini öldürdü, o biriləri isə qaçıb gizləndilər.

**ƏLAVƏ:** Yenə bu tarixdə divana qulluq edən bir ləzgi müsəlmanını rus xəzinəsinin qabağında ermənilər tapança ilə vurub öldürdülər. Əhvalatdan xəbərdar olan Şuşa qalasının müsəlmanları böyük bir icma ilə gedib həmin ləzginin cəsədini tabuta qoyub böyük məscidin həyətinə gətirirlər. Qüsl verdikdən sonra isə aparıb qəbiristanlıqda dəfn edirlər. Müsəlmanların qəzəbindən ehtiyat edən ermənilər acizanə surətdə müsəlmanlardan üzrxahlıq etdilər ki, həmin ləzgini rus bilib öldürüblər. Ona görə qatilin bağışlanmasını xahiş etdilər.

**ƏLAVƏ:** Yenə bu tarixdə Şuşa qalasında erməni camaatı rus tayfasından bir böyük vəzifəli şəxsi tapança ilə öldürdülər. Həmin bu rus ilk dəfə Qalaya gələndə kasıb olduğundan bir manata belə möhtac imiş. Amma öləndən sonra onun evindən külli miqdarda nəqd pul və əşya çıxmışdır. Buradan aydın oldu ki, o, dövlətə xəyanət edib erməni və müsəlmanlardan rüşvət almışdı.

Xülasə, erməni tayfası bu qəbil şəxslərdən Qalada və kəndlərdə çox öldürürdülər. Bütün bunlara baxmayaraq, müsəlmanlar onlara (ermənilərə) mehribanlıq və hörmət göstərirdilər. Belə ki, bu tarixdə Şahnəzərovlar nəslindən Qriqor ağa adlı birisi vəfat etmişdi.

Müsəlmanların əyan və əşrafları toplaşıb onun dəfn mərasimində iştirak etdilər. Qriqor ağanı tabuta qoyub müsəlmanlar öz qayda-qanunları ilə çiyinlərinə alaraq qəbiristanlığa aparıb dəfn etdilər. Onun özü və ata babaları (Bəhram bəy, Cəmşid bəy və Məlik Şahnəzər) müsəlmanlara çox böyük rəğbət bəslədiklərinə görə Qalanın müsəlman camaatı bir neçə gün yas mərasimində iştirak etdilər. Hətta Cəmşid bəyin bir bacısı Hurizad xanım mərhum İbrahim xanın arvadı idi. Bu xanımın övladı olmadığına görə böyük məscidin həyətində otaqlar tikdirərək vəqf etdirdiyi otaqlar indi də qalmaqdadır. Cəmşid bəyin özü Rəhim bəyə vəsiyyət etmişdi ki, öləndə məni erməni qəbiristanlığında dəfn etməsinlər. Cəmşid bəy öləndə Rəhim bəy Şuşada olmadığından ermənilər onu aparıb öz qəbiristanlıqlarında dəfn etmişdilər. Rəhim bəy gələndən sonra dərhal Cəmşid bəyin tabutunu erməni qəbiristanlığından çıxarıb kənar yerdə dəfn etdilər.

**Ardı var**

***Səhifəni hazırladı: Tahir Süleyman***

# Kürd İmperatorluqları

Qutilərin varlığı çox qədimlərə uzanır. Bu günə qədər bilinən ilk Quti imperatoru Emnatum miladdan əvvəl 3100-cü illərdə yaşamışdır.

Lağas kralı Adadnari hələ miladdan əvvəl 2400-cü illərdə Karda xalqından söz etmişdir. Eyni fikri Ur (Our) kralı Kmil Sin də Kurde torapqlarından bəhs edərək təsdiqləmişdir. Hitit kralı I Şuppilulita m. ə 1370-ci ildə Qurde xalqından söz açmışdır. Daha sonralar Assur kitabələrində Kardaka yaylasından və Kurtie – Kurti xalqından bəhs olunmuşdur.

Assur kralı Tukulti İnor, Qutilərə «Kurdi» deyirdi (Bax: İhsan Nuri Paşa, səh-33).

Milladdan 900 il əvvəl yaşamış Assur kralı Adalnirari Kusi, Kuti, Subari orduları ilə vuruşduğunu qeyd edir. Bu kral öz kitabələrində Qutiləri «Kürdi» deyə adlandırıb.

Kürd xalqının tarixini incələyərkən araşdırmaçıların müxtəlif dəyərli əsərlərindən istifadə etdikləri İhsan Nuri Paşa bu haqda belə demişdir:

- Kürd əsilli olan Khaldi (Xaldi), Ararati. Subari, Nauri, Mitanni, Muşki və Kassit dövlətlərinin Qutilərdən ayrıldığını, yeni hamısının kökünün qutilərə dayandığını göstərən əsərlər var. Bunlardan biri m. ə 1280-1261-ci illərdə yaşamış Asur kralı I Salamanasar krallığından qalan kitablarda bunu yazır: «Bir ulduz kimi parlayan Quti xalqı yalnız çoxluğu ilə deyil, əzm, şiddət, dəhşət və yıxıçılıqları ilə tanınmaqdadır. Düşmənçilikləri mənə də qarşı sürüb getdi».

Kürd Quti dövlətinin dağılmasından təxminən 1000 il sonra yaşamış Assur kralı Salmanasar, beləcə Quti qollarından gələn və öz yerinə çatan yeni kürd xalqlarının və onların dövlətlərinin qutilərin soyu və övladları olaraq tanıtmaqdadır. Onlar üçün min illik bir zaman fasiləsindən sonra da yenə quti sözlərini işlətməkdədir.

Etdiyi müharibələrdən sonra kral Salmanasar bunları yazmışdır: «Ararat sərhədindən Tur Abidinə qədər bir ölkə içində Quti qanı su kimi axıdıldı, lakin məğlub olmalıdılar».

… Yuxarıda adları çəkilən coğrafi terminlərin yerləşdiyi bölgələrdə bu gün də kürd xalqı yaşamaqdadır. Tarixi Babil ölkəsini fəth etmək ilk dəfə qutilərə nəsib olmuşdur. Quti dövləti parçalandığında, onların qollarından biri olan Kassitlərin parlaq və güclü dövrləri 725-ci ilə çatan bir məmləkətin təməlini Babildə saldılar. Kürd xalqının məşaləsini Subarilər, Mitanilər, Khaldilər, Muşki və Nayri dövlətləri vasitəsilə Med imperatorluğuna qədər daşıyıb gətirdilər.

Qutilərin kürd xalqının atası olduqlarını isbat etmək üçün «Ön Asiya və Mesopotomiya» tarixini incələyən və araşdıran elm və tarixçi amilləri də bu həqiqəti araşdırmalarında dilə gətirmişlər. Bunun isbatı olaraq Pensilvaniya Univerisitetinin professorlarından Speizer «Mesopotomiyanın kökəni» adlı əsərində kürdlərin qutilərlə Zaqros hulibiləri ilə eyni irqdən olduqlarını yazır (B. Nikitin, cild I. səh 91. Diponot).

Osmanlı tarixçilərindən Əhməd Rəfik «Ümumi tarix» adlı əsərində və onunla birlikdə Əmin Zəki də «Kürd tarixi» adlı əsərində müxtəlif fakt və sübütlarla eyni fikri təsdiqləmişlər (Ehsan Nuri Paşa, səh 38-40).

Tanınmış tarixçi Mucerson qutilərdən gələn Naviri xalqının hakimiyyətinin sonunda Kurti deyilərək adlandırıldıqlarını göstərməkdədir ki, bu da qutilərin kürdlərin ataları olduqlarını sübut edir. Hətta doktor Kontinov da miladdan 4000 min əvvəl Mesopotomiya və Zaqros dağlarında yerləşən xalqların Quti və Kusi (Kassit) deyə adlandırdıqları və ari irqdən olduqlarını, Kürd xalqının bu torpaqlardan enib gəldiyini vurğulayır. İstər Mucersonun, istərsə də doktor Kontinovun dediklərini təsdiq etmək üçün «Kürd ədəbiyyatı tarixi» əsərini göstərmək istərdik (II hissəyə bax).

